**Azərbaycan Respublikasının**
**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin**
**2015-ci il üzrə fəaliyyəti haqqında**
**hesabat**

Müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin sosial yönümlü iqtisadi inkişaf strategiyasının Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən dövrün reallıqları nəzərə alınmaqla uğurla inkişaf etdirilməsi nəticəsində bu gün ölkəmizin sosial-iqtisadi tərəqqisi keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur.

Bir tərəfdən qeyri-neft sektorunun inkişafının sürətləndirilməsi, regionların tarazlı inkişafı, əlverişli biznes və investisiya mühitinin möhkəmləndirilməsi, sahibkarlığa hərtərəfli dəstək verilməsi, digər tərəfdən də əhalinin sosial müdafiəsinin və maddi rifah halının daha da gücləndirilməsi sahəsində əhəmiyyətli nailiyyətlər əldə edilmişdir.

Ötən illərdə olduğu kimi, 2015-ci ildə də ölkədə yoxsulluq və işsizlik səviyyəsinin nəzərəçarpacaq dərəcədə azaldılmasına, vətəndaşların maddi rifah halının yaxşılaşdırılmasına, əhalinin bütün təbəqələri üçün bərabər sosial təminat sisteminin təkmilləşdirilməsinə, insan kapitalının və sosial infrastrukturun inkişafına nail olunmuş, sosial cəhətdən həssas əhali qruplarının sosial müdafiəsi gücləndirilmişdir.

İnkişaf etmiş ölkələrdə sosial-iqtisadi böhranın hələ də davam etdiyi bir zamanda respublikamızda sosial sahənin inkişafı üzrə dövlət proqramları tam şəkildə icra olunur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ölkənin prioriteti sıralarında düşünülmüş sosial siyasətin durduğunu, Azərbaycanda güclü və ciddi iqtisadi islahatların düşünülmüş sosial siyasətlə tamamlandığını, siyasətimizin mərkəzində Azərbaycan vətəndaşının dayandığını dəfələrlə qeyd etmişdir.

Müasir dövrdə Azərbaycanda həyata keçirilən sosial siyasət əhalinin etibarlı sosial müdafiəsinə, əhalinin müxtəlif təbəqələrinin, xüsusilə də aztəminatlı ailələrin və sosial cəhətdən həssas təbəqənin həyat keyfiyyətinin yüksəldilməsinə geniş imkanlar yaratmışdır.

Həyata keçirilən uğurlu iqtisadi siyasət nəticəsində respublikamız regionda lider ölkəyə çevrilmiş, ölkə iqtisadiyyatının dinamik inkişafı təmin edilmiş, əhalinin həyat səviyyəsi ilbəil yüksəlmiş, yoxsulluq səviyyəsi dəfələrlə azalmışdır. Ötən müddətdə ölkəmizdə iqtisadi inkişaf və yoxsulluğun azaldılması üzrə gerçəkləşdirilən dövlət proqramları, eləcə də regional inkişaf proqramları yoxsulluğun səviyyəsinin 2004-cü ildəki 40,2 faizdən 2015-ci ildə 5 faizə enməsi ilə nəticələnmişdir.

**Yoxsulluğun illər üzrə səviyyəsi (%-lə)**




Ötən illərdə olduğu kimi, 2015-ci ildə də əmək bazarının təkmilləşdirilməsi, işsizlik səviyyəsinin nəzərəçarpacaq dərəcədə azaldılması, əmək ehtiyatlarının keyfiyyətcə yaxşılaşması, rəqabət gücünün artırılması, ümumilikdə ölkədə insan potensialının qorunması və inkişaf etdirilməsi istiqamətində müvafiq tədbirlər həyata keçirilmişdir.

Sosial rifah halının yüksəlməsi sahəsində əldə etdiyi nailiyyətlərə görə Azərbaycan BMT-nin İnkişaf Proqramı tərəfindən nəşr edilən "İnsan İnkişafı Hesabatı"na əsasən insan inkişafı indeksinə görə 188 ölkə arasında 78-ci yerdə qərarlaşaraq, yüksək inkişaf səviyyəsinə malik ölkələr qrupuna daxil olmuşdur.

Bu uğurların əldə olunmasında əhalinin gəlir imkanlarının artırılması üçün çoxsaylı və keyfiyyətli iş yerlərinin açılması, sahibkarlığın dəstəklənməsinə və iqtisadiyyatın şaxələndirilməsinə yönələn fəal siyasətin aparılması, əmək haqlarının, pensiya və digər sosial ödənişlərin mütəmadi artırılması, o cümlədən əhalinin sağlamlığı, təhsil, mədəni inkişaf və s. sahələrdə qazanılan nailiyyətlər əsas rol oynayır.

2003-cü illə müqayisədə ötən dövrdə əhalinin gəlirləri 7 dəfəyə yaxın artaraq, 5,7 milyard manatdan 2015-ci ilin noyabr ayına 36,8 milyard manata və ya əhalinin hər nəfərinə orta hesabla 3860,5 manata çatmışdır. Orta aylıq əmək haqqının məbləği isə 5,6 dəfədən çox, o cümlədən 2015 ilin yanvar-oktyabr aylarında əvvəlki ilin müvafiq dövrünə nisbətən 4,6 faiz artaraq 462 manata çatıb. İqtisadiyyatın mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, informasiya və rabitə, peşə, elmi və texniki fəaliyyət, eləcə də tikinti sahələrində orta aylıq əmək haqqı daha yüksək olmuşdur.




2015-ci il noyabrın 1-i vəziyyətinə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı 1504,7 min nəfər olmuş, onlardan 877,9 min nəfəri iqtisadiyyatın dövlət sektorunda, 626,8 min nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərmişdir.

2004-cü ildən bəri ardıcıl dövlət dəstəyi nəticəsində qeyri-neft sektorunun canlanması hesabına respublikada əksəriyyəti daimi və regionlarda olmaqla yeni yaradılan iş yerlərinin sayı 1 milyon 400 mini ötüb.

Ölkədə həyata keçirilən çoxsaylı dövlət proqramlarının icrası nəticəsində inkişaf etmiş Avropa dövlətlərində işsizliyin artması fonunda respublikamızda işsizlik səviyyəsinin nəzərəçarpacaq dərəcədə, yəni 4,9%-dək azaldılmasına nail olunmuşdur.

2015-ci ilin 9 ayı ərzində 87 min iş yeri yaradılmışdır ki, onlardan 67 mini daimi iş yeridir. Açılmış iş yerlərinin 75,1 faizi qeyri-dövlət sektorunu, 68,8 faizi regionları əhatə etmişdir. Daimi iş yerlərinin 13,7 faizi yeni, 11,3 faizi mövcud, 0,7 faizi fəaliyyətini bərpa etmiş müəssisə və təşkilatlarda, 74,3 faizi isə fiziki şəxslər tərəfindən yaradılmışdır.




Ötən il ərzində həyata keçirilən aktiv məşğulluq tədbirləri nəticəsində Dövlət Məşğulluq Xidməti orqanlarına iş üçün müraciət etmiş 59252 nəfər işsiz və işaxtaran vətəndaşdan 29000 nəfəri münasib işlə təmin olunmuş, 3844 nəfərə işsizlik müavinəti təyin edilmiş, 1650 nəfər haqqı ödənilən ictimai işlərə, gənclər və müxtəlif fiziki

məhdudiyyətləri olan vətəndaşlar da daxil olmaqla 4147 nəfər əmək bazarının tələbləri nəzərə alınmaqla uyğun peşə hazırlığı kurslarına,114569 nəfər peşəyönümü məsləhətlərinə cəlb edilmişdir.

Pərakəndə işçi qüvvəsinin daha səmərəli və etibarlı fəaliyyətini təmin etmək məqsədilə 2015-ci il ərzində "Əmək Birjaları" tərəfindən 4117 nəfər işsiz vətəndaş, o cümlədən 2167 nəfər qadın, 1738 nəfər gənc, 155 nəfər qaçqın və məcburi köçkün, 19 nəfər əlil müvəqqəti xarakterli işlərlə göndərilmişdir.

Eyni zamanda, respublikanın 59 şəhər və rayonunda "Əmək Yarmarkaları" keçirilmişdir ki, bunun da nəticəsində 4580 nəfər işlə təmin edilmiş, 477 nəfər peşə hazırlığı kurslarına, 185 nəfər haqqı ödənilən ictimai işlərə cəlb olunmuşdur.

Bu aktiv məşğulluq tədbirlərinin əhatə etdiyi vətəndaşların böyük bir qismi gənclərdən ibarət olmuşdur. İl ərzində gənclərin əmək bazarına inteqrasiyası məqsədilə ölkənin 11 ali təhsil müəssisəsində "Karyerada ilk addım" devizi altında tədbirlər keçirilmişdir ki, bu tədbirlərin nəticəsi olaraq 115 nəfər işlə təmin olunmuş, 180 nəfər peşə hazırlığı kurslarına cəlb olunması üçün qeydiyyata alınmışdır.

Kadr hazırlığı prosesində daha münasib metod olduğunu nəzərə alaraq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Dünya Bankı ilə birgə icra etdiyi "Sosial Müdafiənin İnkişafı" Layihəsinin Modul Təlim Proqramları Komponenti çərçivəsində əmək bazarında daha çox tələb olunan 43 peşə üzrə modul təlimi proqramları hazırlanmış, əmək bazarında olan tələbatı nəzərə alaraq Bakı şəhər Regional Peşə Mərkəzində yeni sinif otaqları və emalatxanaları yaradılmış, Göyçay Regional Peşə Mərkəzi müasir şəkildə yenidən quruluaraq istifadəyə verilmişdir. Bununla yanaşı, Gəncə şəhərində də Regional Peşə Tədris Mərkəzinin yaradılması istiqamətində tamamlama işləri aparılır.

Gənclərin məşğulluq problemlərinin aradan qaldırılması və onlara biznes vərdişlərinin aşılanması məqsədilə Dünya Bankının Sosial Müdafiənin İnkişafı Layihəsi çərçivəsində "Virtual müəssisələr və ya təcrübə şirkətləri" adlı proqramın icrası ilə bağlı tədbirlər həyata keçirilir.

Eyni zamanda, ölkədə səmərəli məşğulluğun təmin edilməsinə yönəldilmiş uzunmüddətli dövlətin məşğulluq siyasətinin formalaşdırılması məqsədilə Azərbaycan Respublikasının Məşğulluq Konsepsiyası layihəsinin hazırlanması üçün İşçi qrupun yaradılması barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin Sərəncam layihəsi hazırlanaraq aidiyyəti üzrə təqdim edilmişdir. Həmçinin, məşğul, işaxtaran və işsiz vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi məqsədilə beynəlxalq təcrübəyə əsaslanaraq "İşsizlikdən icbari sığorta haqqında" Azərbaycan Respublikasının Qanun layihəsi hazırlanmış və razılaşdırılması üzrə işlər davam etdirilir.

2015-ci il ərzində Məşğulluq Xidməti orqanları tərəfindən məşğulluğun təmin edilməsi sahəsində müvafiq məlumat və hesabatları təqdim etməyən 419 müəssisə və təşkilatda (o cümlədən 142 sahibkarlıq fəaliyyəti subyektlərində) araşdırma aparılmış, 322 müəssisəyə (o cümlədən 104 sahibkarlıq fəaliyyəti subyektlərində) qarşı ümumilikdə 12605.0 manat məbləğində inzibati cərimə tətbiq olunmuş, 11973.0 manat dövlət büdcəsinə ödənilmişdir.

Cənab İlham Əliyev tərəfindən ölkədə həyat səviyyəsinin yüksəldilməsi istiqamətində aparılan uğurlu siyasət sosial cəhətdən həssas əhali qruplarına dövlət qayğısının mütəmadi şəkildə artırılması, sosial təminat sisteminin daha geniş əhali kateqoriyalarına yönəldilməsi ilə müşayiət olunub. Əhalinin aztəminatlı hissəsinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər, o cümlədən ünvanlı

sosial yardım proqramlarının məqsədyönlü tətbiqi ölkəmizdə yoxsulluq səviyyəsinin azaldılmasına müsbət təsir göstərməkdədir.

2015-ci ildə ünvanlı dövlət sosial yardımı təyinatı və əlilliyin və sağlamlıq imkanlarının məhdudluğunun qiymətləndirilməsi sistemlərinin təkmilləşdirilməsi sahəsində genişmiqyaslı islahat tədbirlərinin həyata keçirilməsinə başlanılmışdır.

"Ünvanlı dövlət sosial yardımı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" 24 fevral 2015-ci il tarixli 1204-IVQD nömrəli Azərbaycan Respublikası Qanunu ilə ünvanlı dövlət sosial yardımının təyin olunma müddəti 1 il artırılaraq 2 ilə çatdırılmışdır.

Azərbaycan Respublikası Prezidentinin "Ünvanlı dövlət sosial yardımı sisteminin təkmilləşdirilməsi haqqında" 23 fevral 2015-ci il tarixli 477 nömrəli Fərmanın icrası ilə bağlı Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mərkəzləşdirilmiş informasiya sistemində ünvanlı dövlət sosial yardımı üzrə Vahid Elektron Müraciət və Təyinat Alt Sisteminin (VEMTAS) qurulması,vətəndaşlara ünvanlı dövlət sosial yardımı üçün fərdi kommunikasiya vasitələrindən istifadə etməklə elektron formada müraciət etmək imkanının yaradılması, ünvanlı dövlət sosial yardımına görə istər kağız üzərindən, istərsə də elektron formada olunan müraciətlərin "bir pəncərə" prinsipi ilə qəbulu və həmin müraciətlər üzrə tələb olunan arayış və məlumatların VEMTAS-a müvafiq dövlət qurumlarından elektron formada ötürülməsi üçün tədbirlər həyata keçirilmişdir.

Bununla yanaşı, Azərbaycan Respublikası Prezidentinin "Əlilliyin və sağlamlıq imkanlarının məhdudluğunun qiymətləndirilməsi sisteminin təkmilləşdirilməsi haqqında" 14 sentyabr 2015-ci il tarixli 595 nömrəli Fərmanı ilə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mərkəzləşdirilmiş informasiya sistemində Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Alt Sisteminin (TSERAS) yaradılması, əlilliyin və sağlamlıq imkanlarının məhdudluğunun qiymətləndirilməsi üçün vətəndaşlara elektron formada müraciət etmək imkanın verilməsi, əlilliyin və sağlamlıq imkanlarının məhdudluğunun qiymətləndirilməsi məqsədi ilə edilmiş müraciətlər, keçirilmiş müayinələr, qəbul edilmiş qərarlar barədə məlumatları elektron formada real vaxt rejimində TSERAS-a ötürülməsinin təmin edilməsi, əlilliyin və sağlamlıq imkanlarının məhdudluğunun qiymətləndirilməsi ilə bağlı məlumatların əldə edilməsi imkanını yaratmaq məqsədi ilə müayinə olunan şəxslərin, işəgötürənlərin və fəaliyyəti ilə bağlı bu məlumatdan istifadə edən dövlət orqanlarının "Elektron hökumət" portalı vasitəsilə TSERAS-a çıxışının təmin edilməsi sahəsində tədbirlər həyata keçirilmiş və sistemin tətbiqinə başlanılmışdır.

Azərbaycan Respublikası Prezidentinin 14 sentyabr 2015-ci il tarixli 595 nömrəli Fərmanının icrası olaraq Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2015-ci il 30 dekabr tarixli 413 saylı qərarı ilə "Əlilliyin və sağlamlıq imkanlarının məhdudluğunun müəyyən olunması meyarlarına dair Əsasnamə" təsdiq edilmişdir. Həmin qərarla bu Əsasnamənin təsdiq edildiyi günədək əlilliyi müəyyən edilmiş və əlillik müddəti başa çatmamış birinci dərəcə əlilliyi olan şəxslərin əlilliyi müddətsiz müəyyən edilmiş, ikinci və üçüncü dərəcə əlilliyi olan şəxslərin əlillik müddəti 5 il müddətinə, sağlamlıq imkanlarının məhdudluğu müddəti başa çatmamış 18 yaşadək uşaqların sağlamlıq imkanlarının məhdudluğu isə 18 yaşından yuxarı olmamaqla 3 il müddətinə uzadılmışdır.

Hər iki sahədə aparılmış islahat tədbirləri vətəndaş-məmur təmaslarını minimuma endirməklə sistemlərin avtomatlaşdırılması, vətəndaşların sosial təminat sahəsində sürətli, rahat və şəffaf xidmətlərə geniş çıxışının təmin edilməsi, ünvanlı dövlət sosial yardımı üzrə dövlət orqanlarının fəaliyyətinin innovativ texnologiyaların tətbiqi ilə qabaqcıl dünya təcrübəsinə uyğun təşkil edilməsi və bu əsasda aztəminatlı ailələrin sosial

müdafiəsinin gücləndirilməsi və vətəndaşların əlilliyinin və sağlamlıq imkanlarının məhdudluğunun qiymətləndirilməsi sahəsində şəffaflığın artırılması və müasir informasiya texnologiyalarının tətbiqinin genişləndirilməsi, habelə əhaliyə göstərilən tibbi-sosial ekspertiza və reabilitasiya xidmətlərinin keyfiyyətinin yüksəldilməsi məqsədini daşıyır.

"Aztəminatlı ailələrə birdəfəlik yardım göstərilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 30 dekabr 2015-ci il tarixli Sərəncamı ilə Dünya Azərbaycanlılarının Həmrəyliyi günü və Yeni il bayramları münasibətilə 2015-ci il 30 dekabr tarixinə ünvanlı dövlət sosial yardımı alan 104875 ailənin hər birinə 50 manat məbləğində yardım göstərilməsi bu kateqoriyadan olan insanlara bayram sevinci yaşatmışdır.

2015-ci ildə respublika əhalisinin 4,8 faizinə və ya 462923 nəfərə aylıq və birdəfəlik sosial müavinət təyin olunub ödənilmişdir. Sosial müavinət və təqaüd alanların 350921 nəfəri və ya 75,8 faizi aylıq, 112002 nəfəri və ya 24,2 faizi isə birdəfəlik sosial müavinət alanlardır. Bundan əlavə, 54000 nəfərə Azərbaycan Respublikası Prezidentinin təqaüdləri təyin olunaraq ödənilir. 2015-ci ildə 2014-cü ilə nisbətən aylıq və birdəfəlik sosial müavinət alanların sayı 8497 nəfər və ya 1,9 faiz, Prezident təqaüdü alanların sayı 2382 nəfər və ya 4,6 faiz artmışdır.

Ölkədə həyat səviyyəsinin mütəmadi yaxşılaşması, ünvanlı dövlət sosial yardımı proqramının icrasında və bu yardımların təyinatında ünvanlılığın və şəffaflığın təminatı sahəsində görülən işlər ünvanlı yardım təyin olunan ailələrin sayının azalmasına səbəb olmuşdur. 2015-ci ildə respublika üzrə orta hesabla 112663 ailə (492337 nəfər ailə üzvü) ünvanlı dövlət sosial yardımı ilə təmin olunmuşdur ki , bu da 2014-cü illə müqayisədə 8772 ailə (38334 nəfər) azdır.

**Ünvanlı dövlət sosial yardımı alan ailələrin və ailə üzvlərinin sayı**




Yardım alan ailələrin sayının azalması digər tərəfdən aztəminatlı ailələrə ödənilən yardımların məbləğinin artması ilə müşahidə olunur. 2015-ci ildə bir ailəyə düşən yardımın orta aylıq məbləği 2014-cü illə müqayisədə 7,3 faiz artaraq 145.81 manata,2015-ci ilin dekabr ayında isə 152,6 manata çatmışdır.

**Bir ailəyə düşən ÜDSY-nın orta aylıq məbləği (İlin sonuna,manatla)**




Ümumilikdə, 2015-ci il ərzində ünvanlı dövlət sosial yardımının maliyyələşməsinə Azərbaycan Respublikası Prezidentinin 30 dekabr 2015-ci il tarixli Sərəncamı ilə ÜDSY alan ailələrə verilən birdəfəlik yardım nəzərə alınmaqla 202,43 milyon manat vəsait xərclənmişdir ki, bu da 2014-cü illə müqayisədə 4,39 milyon manat çoxdur.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlil olmuş şəxslərin və onlara bərabər tutulanların zəruri dövlət qayğısı ilə əhatə olunmaları, onların mənzil-məişət şəraitinin yaxşılaşdırılması hər zaman dövlət başçısının xüsusi diqqətində olmuşdur.

2015-ci ildə Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlil olmuş şəxslərdən və şəhid ailələrindən olan 199 şəxs mənzillə və 82 nəfər isə fərdi evlə (Tərtər rayonunda 54 mənzilli yaşayış evi, 11 rayonda 82 fərdi yaşayış evi, Bakı, Gəncə və Mingəçevir şəhərlərində hazır yaşayış binalarından alınaraq təmir etdirilmiş 145 mənzil, yəni ümumilikdə 281 mənzil) təmin olunmuşlar. Bundan əlavə, Naxçıvan Muxtar Respublikasında 10 mənzil və fərdi ev də bu kateqoriyadan olan şəxslərə verilmişdir.

Eyni zamanda, Bakının Nərimanov rayonunda 132 mənzilli yaşayış binası gözdən əlil şəxslərin istifadəsinə verilmişdir. Ümumilikdə, 2015-ci ildə güzəştli kateqoriyadan olan şəxslərə 423 mənzil və fərdi ev verilmişdir.

Əlillərin dövlət hesabına avtomaşınlarla təminatı onların həyat şəraitinin yaxşılaşdırılmasında və cəmiyyətə inteqrasiyasında xüsusi rol oynayır. 2015-ci ildə 400 nəfər imtiyazlı şəxs pulsuz avtomobillə təmin edilmişdir.

2015-ci il ərzində ayrı-ayrı ildönümlərlə əlaqədar, həmçinin sosial-məişət problemlərinin həllinə köməklik məqsədilə ümumilikdə 10216 nəfər əlilliyi olan şəxs və şəhid ailələri birdəfəlik yardımlarla təmin olunmuş, bilik günü münasibətilə tərkibində 2 və daha çox uşaqları olan 1492 ailənin 3117 nəfər uşağına maddi yardım verilmiş və 78 nəfər əlilin tibbi reabilitasiya olunmaları ilə bağlı xərclər ödənilmişdir.

Hesabat dövründə 3164 nəfər imtiyazlı şəxs sanatoriya-kurort yollayışı, 1005 nəfər imtiyazlı şəxs istirahət mərkəzlərinə yollayışla təmin olunmuşdur.

Hazırda Nazirliyin tabeliyində olan sosial xidmət müəssisələrində ümumilikdə 1033 nəfər dövlət təminatındadır. Eyni zamanda, Əhalinin sosial müdafiəsi mərkəzləri tərəfindən 12349 nəfər tənha ahıl və əlilə evdə (səyyar) sosial xidmət göstərilir.

2015-ci ildə aylıq və birdəfəlik sosial müavinət, təqaüd və kompensasiyaların ödənilməsinə 303,9 milyon manat vəsait xərclənmişdir ki, bu da 2014-cü ilin göstəricisi ilə müqayisədə 12,24 milyon manat və ya 4,2 faiz çoxdur.

Dövlətin həyata keçirdiyi sosial-iqtisadi siyasətin prioritetləri sırasında sosial müdafiə sisteminin təkmilləşdirilməsi, əhalinin, o cümlədən imtiyazlı əhalinin həyat səviyyəsinin yüksəldilməsinin təmin edilməsi önəmli yer tutur.

Əlillərə münasibət sahəsində sosial siyasət həyatda və cəmiyyətin inkişafında onların fəal iştirak etməsi imkanlarının genişləndirilməsinə, sosial rifah halının, maddi vəziyyətlərinin yaxşılaşdırılmasına yönəldilmişdir.

2015-ci ildə də respublikada əlillərin cəmiyyətə inteqrasiyası, tibbi-sosial ekspertiza xidmətinin keyfiyyətinin yüksəldilməsi və əlillərin reabilitasiyası istiqamətində kompleks və ardıcıl tədbirlər həyata keçirilmişdir.

Tibbi-sosial ekspertiza sahəsində şəffaflığın təmin olunmasına nəzarətin xeyli güclənməsinin nəticəsi olaraq 2015-ci ildə əlilliyi olan şəxslərdən tam reabilitasiya olunanların sayı 5340 nəfər, hissəvi reabilitasiya olunanların sayı isə 3345 nəfər təşkil edib. 2015-ci il ərzində tibbi-sosial ekspert komissiyalarına ilkin əlillik müəyyən edilməsi məqsədi ilə 35575 (2014-cü ildə -38893 ) nəfər müraciət etmiş və bu şəxslərdən 27023 nəfəri – 75,9% (2014-cü ildə 30992 nəfər – 79,6 %) əlil hesab edilmişdir. İlkin əlil hesab edilənlərin sayı ötən ilə nisbətən 3969 nəfər azalmışdır. Həmçinin, 177917 (2014-cü ildə - 199653) nəfər şəxs təkrar müayinə edilmiş və bunlardan 172468 nəfəri (2014-cü ildə - 191986 nəfər) əlil hesab edilmişdir.

2015-ci ildə 18 yaşınadək 30072 nəfər sağlamlıq imkanları məhdud uşaq hesab edilmişdir. Onların 7911 nəfəri – 26,3%-i (2014-cü ildə 11196 nəfər) ilkin, 22161 nəfəri - 73,7%-i (2014-cü ildə 21817 nəfər) isə təkrar sağlamlıq imkanları məhdud uşaq hesab edilmişdir. İlkin sağlamlıq imkanları məhdud uşaqların sayı 2015-ci ildə 3285 nəfər azalmışdır.

**İlkin və təkrar əlillik təyin edilənlərin sayı (nəfərlə)**




2015-ci ildə əlilliyi olan şəxslərə 1273 ədəd əlil arabası, 539 ədəd eşitmə aparatı verilib, ümumilikdə 5727 nəfərə protez-ortopedik xidmət göstərilib. Nazirliyin bərpa mərkəzlərində 6105 nəfər bərpa-müalicə xidməti ilə təmin olunub, 135 nəfər əlilliyi olan

şəxsin, 130 nəfər sağlamlıq imkanları məhdud uşağın xarici ölkələrdəki reabilitasiya mərkəzlərində bərpa-müalicəsi təşkil etmişdir.

Əlilliyi olan insanların məşğulluğuna şərait yaradılması, onların əmək bazarına maneəsiz çıxışının dəstəklənməsi, ötən dövrlərdə olduğu kimi, diqqət mərkəzində saxlanılmışdır. 2015-ci ildə 473 əlilliyi olan şəxs işlə təmin edilmiş, 204 nəfər isə peşə hazırlığı kurslarına cəlb edilmişdir.

Ramana qəsəbəsində Sağlamlıq İmkanları Məhdud Gənclərin Peşə Reabilitasiya Mərkəzində 130 nəfər sağlamlıq imkanları məhdud gənc yeni peşələrə yiyələnmişdir.

"Sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən 2013-cü ildən etibarən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən sosial xidmət sahəsində dövlət sifarişlərinin verilməsi prosesinə başlanılmışdır. Nazirliyin sifarişi ilə 2015-ci ildə qeyri-hökumət təşkilatları tərəfindən sağlamlıq imkanları məhdud uşaqlara, sosial təhlükəli vəziyyətdə olan yetkinlik yaşına çatmayanlara sosial reabilitasiya xidmətlərinin göstərilməsi, sağlamlıq imkanları məhdud uşaqların müalicəsi və asudə vaxtlarının təşkili istiqamətində 29 layihə üzrə 1500 nəfər uşağa sosial xidmətlər göstərilmişdir.

Əmək və sosial müdafiə sisteminin bütün sektorlarında aparılan işlərdə vətəndaş cəmiyyəti institutları ilə ilə sıx əməkdaşlığın qurulması, görülən işlərdə ictimai nəzarətin təmin olunması məqsədilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində 2015-ci il 28 sentyabr tarixində 15 vətəndaş cəmiyyəti institutundan ibarət İctimai Şura yaradılmışdır. Eyni zamanda, məişət zorakılığından zərər çəkmiş şəxslərə sosial xidmət göstərilməsi üçün nazirlikdə 10 qeyri-dövlət qurumu akkreditasiya olunmuşdur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevinin dövlət uşaq müəssisələrində tərbiyə alan və 18 yaşı tamam olduqdan sonra bu müəssisələri tərk edən valideyn himayəsindən məhrum, kimsəsiz gənclərə diqqət və qayğısının təzahürü olaraq 2015-ci ildə Abşeron rayonunun Masazır qəsəbəsində 120 mənzilli "Məzun evi" tikilərək bu təbəqədən olan gənclərin istifadəsinə verilmişdir.

2015-ci il ərzində Nazirliyin İnsan Alveri Qurbanlarına Yardım Mərkəzi tərəfindən Daxili İşlər Nazirliyinin İnsan Alverinə Qarşı Mübarizə Baş İdarəsi tərəfindən yönləndirilmiş 58 nəfər insan alveri qurbanına (55 nəfər qadın, 3 nəfər kişi) və müxtəlif qeyri-hökumət təşkilatları tərəfindən yönləndirilmiş və fərdi olaraq müraciət etmiş 19 nəfər (13 nəfər qadın, 6 nəfər kişi) insan alverinin potensial qurbanına hüquqi, psixoloji, maddi, tibbi yardımlar göstərilmişdir.

Regionlarda zorakılığın qurbanı olan uşaqların sosial, psixoloji və hüquqi reabilitasiyasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin dəstəyi ilə Gəncə və Lənkəran şəhərlərində, o cümlədən Ucar rayonunda məişət zorakılığına məruz qalmış uşaq və gənclər üçün regional sosial reabilitasiya mərkəzləri təsis edilmişdir.

Avropa İttifaqının maliyyə dəstəyi ilə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Avstriya Respublikasının müvafiq qurumu (Vyana şəhəri İşçi Nümayəndəliyi) tərəfindən birgə ikiillik (01 iyun 2015 - 31 may 2017) "Sosial xidmət təminatının inkişafı" Tvinninq layihəsinin icrasına başlanılmışdır. Layihənin məqsədi çətin həyat şəraitində olan şəxslərin sosial inklüziyasının təmin edilməsi, müvafiq sahədə qanunvericiliyin və institutsional mexanizmlərin təkmilləşdirilməsi və keyfiyyətli sosial xidmətlərin təminatı üçün zəruri şəraitin yaradılmasıdır. Layihənin icrası ilə əlaqədar sosial xidmət təminatı üzrə aztəminatlı ailələrin uşaqları, ahıllar, penitensiar müəssisələrdə cəza

çəkməkdən azad edilmiş şəxslərlə yanaşı məişət zorakılığından zərər çəkmiş şəxslər də hədəf qruplar kimi müəyyən edilmişdir.

İstehsalatda müasir texnologiyaların tətbiqi və ölkədə irimiqyaslı infrastruktur layihələrinin gerçəkləşdirilməsi öz növbəsində işəgötürənlər tərəfindən əmək qanunvericiliyinə əməl edilməsinə, onların sosial məsuliyyətlərinin artırılmasına yönəlmiş tədbirlərin gücləndirilməsini tələb edir.

2015-ci ildə mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq, respublikamızda fəaliyyət göstərən 11189 işəgötürəndə əmək qanunvericiliyinin tələblərinə əməl olunmasına dövlət nəzarəti həyata keçirilmişdir.

Bu müddət ərzində vətəndaşlardan daxil olmuş 8697 şikayət məzmunlu ərizə və müraciət, müəssisə, idarə və təşkilatlar tərəfindən göndərilmiş 1754 ədəd müxtəlif xarakterli sorğu araşdırılaraq cavablandırılmışdır.

Həyata keçirilən dövlət nəzarəti tədbirləri və vətəndaşların müraciətlərinin araşdırılması zamanı 14769 halda işəgötürənlər tərəfindən əmək qanunvericiliyinin tələblərinin pozulduğu aşkar edilmişdir. Həmin hüquq pozuntularının böyük əksəriyyətinin aradan qaldırılması təmin edilmiş, aradan qaldırılması vaxt tələb edən pozuntuların ləğvi üçün işəgötürənlərə icrası məcburi olan göstərişlər verilmiş və icrası nəzarətə götürülmüşdür.

Törədilmiş inzibati xətaya görə vəzifəli və hüquqi şəxslər barədə inzibati qərar qəbul edilərək 4338200 manat məbləğində inzibati cərimə tətbiq olunmuşdur ki, bunun da 43,5%-nin dövlət büdcəsinə ödənilməsi təmin edilmişdir.

Görülmüş tədbirlər nəticəsində vətəndaşlara ödənilməsi təmin edilmiş gecikdirilmiş ödəmələrin ümumi məbləği 5485179 manat olmuşdur.

2015-ci ildə əmək müqavilələrinə qanunvericiliyin tələbləri pozulmaqla xitam verilmiş 22 nəfər öz əvvəlki işlərinə bərpa edilmiş, işçilər barəsində yol verilmiş çoxlu sayda qanun pozuntularının aradan qaldırılması təmin edilmişdir.

Hesabat dövründə istehsalatla əlaqəli sayılmış 149 bədbəxt hadisənin təhqiqatı aparılmışdır ki, onlardan da 3-ü qrup halında baş vermişdir. Bu hadisələr nəticəsində 49 nəfər həyatını itirmiş, 111 nəfər isə müxtəlif dərəcəli bədən xəsarəti almışdır.

İqtisadi fəaliyyət sahələri üzrə istehsalatla bağlı bədbəxt hadisələrin daha çox tikinti sektorunda (bütün hadisələrin 29,3%-i), emal sənayesində (20,3%) nəqliyyat sektorunda (9,3%) və energetika sahəsində (9,0%) baş verməsi müəyyən edilmişdir. Tikinti sektorunda 39 bədbəxt hadisə baş vermiş (onlardan qrup halında hadisə qeydə alınmamışdır) və bu hadisələr zamanı ölənlərin sayı 13 nəfər, xəsarət alanların sayı isə 29 nəfər olmuşdur.

Əmək münasibətlərinin elektron müstəvidə şəffaflaşdırılmasını təmin edən 2014-cü ilin iyul ayından tətbiqinə başlanılmış əmək müqaviləsi bildirişi üzrə elektron informasiya sisteminin təkmilləşdirilməsi ilə bağlı işlər 2015-ci ildə də davam etdirilmişdir. MDB məkanında ilk dəfə Azərbaycanda qurulan əmək müqaviləsi bildirişi üzrə elektron informasiya sistemi əmək münasibətlərinə birbaşa və operativ nəzarətin həyata keçirilməsinə imkan yaradıb. Elektron sistem əmək bazarı ilə bağlı dolğun və obyektiv informasiya bazası formalaşdırmışdır.

2016-cı ilin 1 yanvar tarixinə elektron informasiya sistemində 68,6 mindən çox işəgötürən tərəfindən daxil edilmiş 2,86 milyondan cox bildiriş qeydiyyata alınmışdır.

2015-ci ildə 360,6 min iş yeri üzrə əmək müqaviləsinin bağlanması, 369,6 min iş yeri üzrə əmək müqaviləsinə xitam verilməsi halı sistem tərəfindən qeydə alınmışdır.

Azərbaycanın davamlı və dayanıqlı sosial-iqtisadi inkişafının təmin edilməsi, dövlət idarəçiliyinin müasir prinsiplər əsasında həyata keçirilməsi məqsədi ilə informasiya və kommunikasiya texnologiyalarından istifadə olunması dövlət siyasətinin prioritetlərindən birinə çevrilmiş və bu sahədə mühüm tədbirlər görülmüşdür.

Həyata keçirilmiş tədbirlər nəticəsində hazırda ölkəmizdə modern və çevik idarəetməni təmin edən, dövlət orqanlarının fəaliyyətində şəffaflığı artıran və korrupsiyaya şərait yaradan halların qarşısını alan əhaliyə göstərilən müxtəlif elektron xidmətlər sistemi qurulmuşdur.

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi sosial sahəyə aid xidmətlərinin "Elektron hökumət" portalı vasitəsilə əhaliyə çatdırılması məqsədi ilə hesabat dövründə fəaliyyətini daha da aktivləşdirmişdir. Bu dövrdə "Tibbi-Sosial Ekspert Komissiyaları tərəfindən keçirilmiş müayinə barədə məlumatın verilməsi"yeni elektron xidmət bu portal vasitəsi ilə əhalinin istifadəsinə verilmişdir.

2015-ci ildə "Elektron hökumət" portalı tərəfindən təqdim edilən elektron xidmətlərdən istifadə statistikasına görə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilk yerlərdən birini tutur. Portalın təqdim etdiyi elektron xidmətlərdən 11,6 milyon dəfə istifadənin 19%-i ƏƏSMN-nin təqdim etdiyi elektron xidmətlərin payına düşür. Ümumilikdə, 2015-ci ildə ƏƏSMN-nin təqdim etdiyi elektron xidmətlərdən 2,2 milyon dəfə istifadə olunmuşdur. İstifadə olunan elektron xidmətlərin 60,8%-i "Əmək müqaviləsi bildirişlərinin qeydiyyata alınması və bu barədə işəgötürənə məlumatın verilməsi" elektron xidmətinin, 9,3%-i isə"İş yerinə dair arayış" elektron xidmətinin payına düşür.

Azərbaycanda iqtisadi inkişaf, sabitlik, xalqın rifahının artması nəticəsində çox müsbət demoqrafik vəziyyət yaranmışdır. 2015-ci il sentyabr ayının 1-i vəziyyətinə ölkə əhalisinin sayı 9666,0 min nəfərə çataraq ilin əvvəlindən 73,0 min nəfər və ya 0,8 faiz artmışdır. Ölkədə doğum səviyyəsi yüksək olaraq qalmaqda davam edir və cari ilin yanvar-avqust ayları ərzində doğulanların sayı ölənlərin sayından 71,8 min nəfər çox olmuşdur. Belə ki, 2015-ci ilin 8 ayı ərzində ölkədə 109,0 min, yaxud hər gün orta hesabla 449 körpə doğulmuş və əhalinin hər 1000 nəfərinə hesabı ilə bu göstərici 17,2 təşkil etmiş, doğulanda gözlənilən ömür uzunluğu 74,2 yaşa çatmışdır. Bu müsbət demoqrafik tendensiya nəzərə alınaraq nazirlik tərəfindən 2015-2025-ci illəri əhatə edən "Azərbaycan Respublikasında əhali sakinliyi və demoqrafik inkişaf sahəsində Dövlət Proqramı"nın layihəsi hazırlanaraq Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edilmişdir.

2015-ci ildə Dövlət Miqrasiya Xidməti tərəfindən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə rəy verilməsi üçün daxil olmuş 17085 müraciətdən 5440 (31,84%) ədədi (3170-i iş icazəsinin verilməsi, 2270-i isə iş icazələrinin müddətlərinin uzadılması) məqsədəuyğun hesab edilmişdir. 11645 (68,1%) müraciət üzrə iş icazəsi verilməsi məqsədəuyğun hesab edilməmişdir. Bu müddət ərzində rəy verilməsi üçün göndərilmiş məlumatlara əsasən əcnəbilərin 37,5%-i (6409 nəfər) Türkiyə Respublikası, 12,2%-i (2078 nəfər) Böyük Britaniya, 10,9%-i (1862 nəfər) Özbəkistan Respublikası, 7,8%-i (1338 nəfər) Hindistan vətəndaşlarıdır. Müsbət rəy verilmiş əcnəbilərin əsasən mədənçıxarma, tikinti və emal sənayesi sahələrində işə cəlb olunması nəzərdə tutulmuşdur.

2015-ci il ərzində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin beynəlxalq əlaqələrinin dinamik inkişafı təmin edilmiş, nazirliyin fəaliyyət istiqamətlərinə uyğun olaraq xarici ölkələrin müvafiq qurumları ilə əlaqələr genişləndirilmişdir.

2015-ci ildə Almaniya Federativ Respublikasının Bədbəxt Hadisələrdən Sosial Sığorta Təşkilatının prezidenti İoakim Bröyerin, Latviya Respublikasının rifah naziri Uldis Auqulisin, İran İslam Respublikasının Kooperasiya, əmək və sosial rifah naziri Əli Rəbinin Bakıya səfərləri baş tutmuşdur. Türkiyə Respublikası ilə əmək və sosial müdafiə sahəsində əməkdaşlıq üzrə Birgə Daimi Komissiyanın 8-ci iclasında Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri iştirak etmişdir.

2015-ci ildə "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Latviya Respublikasının Rifah Nazirliyi arasında əmək, məşğulluq və əhalinin sosial müdafiəsi sahələrində əməkdaşlıq haqqında Memorandum", "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Əfqanıstan İslam Respublikasının Əmək, Sosial İşlər, Şəhid və Əlillər Nazirliyi arasında əmək, sosial müdafiə və məşğulluq sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu" imzalanmışdır.

2015-ci il ərzində Bakı şəhərində 8 müxtəlif beynəlxalq tədbir–konfranslar, seminarlar, təqdimatlar təşkil olunmuşdur.

2015-cü il ərzində əmək, məşğulluq, sosial müdafiə sahələrində hüquqi bazanın təkmilləşdirilməsi məqsədilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən hazırlanmış normativ hüquqi akt -1 Qanun, Azərbaycan Respublikası Prezidentinin 3 Fərmanı, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 6 qərarı, 2 reqlament və 1 sahəvi qaydanın layihələri təsdiq edilmişdir.

2015-cü il ərzində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 19 normativ hüquqi aktın layihəsi hazırlanmış və onların qanunvericiliklə müəyyən edilmiş qaydada qəbul olunması istiqamətində tədbirlər həyata keçirilir.

2015-ci ildə nazirliyə 54454 ədəd vətəndaş müraciəti daxil olmuş, aidiyyatı üzrə icraya verilmiş və qanunvericiliyə uyğun olaraq müraciətlərdə qaldırılan məsələlər araşdırılmış və müəyyən edilmiş müddətlərdə cavablandırılmışdır. Daxil olan vətəndaş müraciətləri üzrə statistik təhlillər aprılaraq müvafiq tədbirlər görülmüşdür.

İl ərzində Nazirliyin rəhbərliyi tərəfindən 156 dəfə vətəndaş qəbulu keçirilmiş və ümumilikdə 907 nəfər vətəndaş qəbul edilmişdir.

"2015-ci ildə mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu qrafiki"nə uyğun olaraq rəhbərlik tərəfindən 12 dəfə vətəndaşların qəbulu keçirilmiş, 512 nəfər vətəndaş qəbul edilmişdir. Qəbul zamanı nazirliyin fəaliyyət dairəsinə aid sahələrlə bağlı daxil olan şikayət xarakterli müraciətlər vətəndaşların və nazirlikdə yaradılan İctimai Şuranın üzvlərinin iştirakı ilə yerindəcə araşdırılmışdır.

Nazirliyin "142-Cağrı mərkəzi"inə 111386 ədəd müraciət daxil olmuşdur. Onlardan 40,4%-i sosial təminat məsələləri, 23,9%-iəmək qanunvericiliyi, 16,2%-i nazirliyin elektron xidmətlərindən istifadə, 11%-iəlilliyi olan şəxslərin reabilitasiyası və tibbi sosial ekspertiza məsələləri, 8,5%-i məşğulluq məsələləri ilə əlaqədar olmuşdur.

**Çağrı Mərkəzinə daxil olmuş müraciətlər (ədədlə)**




Nazirliyin “Qəbul otağı”nda 25633 nəfər vətəndaş qəbul edilmiş və qəbul edilən vətəndaşların sayı keçən ilin müvafiq dövrü (13415 nəfər) ilə müqayisədə 12218 nəfər artmışdır. Onlardan 11277 nəfəri sosial təminat məsələləri, 4515 nəfəri əlillərin reabilitasiyası və tibbi sosial ekspertiza məsələləri, 5726 nəfəri işsizlik və əhalinin məşğulluq məsələləri, 3268 nəfəri əmək qanunvericiliyi, 847 nəfəri digər məsələlər ilə əlaqədar müraciət etmişdir.




Nazirliyin rəsmi facebook səhifəsi vasitəsilə vətəndaşların müraciətlərinin cavablandırılması işi təşkil olunmuş, cari ilin ötən dövrü ərzində ümumilikdə 2200-dən çox müraciət cavablandırılmışdır. Hazırda isə nazirliyin rəsmi facebook səhifəsini bəyənənlərin

sayı 33 mini ötüb. Nazirliyin twitter hesabı da daim yenilənir. Nazirliyin KİV-də gedən xəbərlərinin videolarının yazılması, saytda və sosial şəbəkələrdə yayılması təşkil edilmişdir. Ümumilikdə nazirliyin Youtube kanalında il ərzində 110-dan çox video yerləşdirilmişdir.

Hesabat dövrü ərzində 480-ə yaxın press-reliz və məlumatlar hazırlanaraq mətbuatda yayılmış vəhəmin məlumatlar nazirliyin rəsmi internet səhifəsindəki «Xəbərlər» və «Press-relizlər» bölmələrində yerləşdirilmişdir. Nazirliyin rəsmi internet səhifəsindəki məlumatlar qeyd olunan dövr ərzində ingilis dilinə tərcümə edilmişdir və gündəlik yayımlanan press-relizlərin hamısı ingilis dilinə tərcümə edilərək saytda yerləşdirilir.

Nazirliyin fəaliyyətində şəffaflığın daha da təmin edilməsi məqsədilə hesabat dövründə nazirliyin rəsmi saytında bir sıra bölmələr yaradılmışdır.

Nazirliyin strukturlarının KİV-lə və ictimaiyyətlə əlaqələrində səmərəliliyin artırılmasına, bu sahədə mövcud münasibətlərin yaxşılaşdırılmasına dair mütəmadi təkliflər verilmişdir.